# Dəstəmazın müxtəsər təlimi

**Dəstəmazsız namaz məqbul sayılmır. Dəstəmaz mütləq təmiz, yəni paklığını itirməmiş su ilə alınmalıdır. Misal olaraq dəniz, quyu, çay və bulaq sularını qeyd etmək olar.**



Dəstəmaza **"Bismilləh"** kəlməsi ilə başlanır.
Hər dəfə dəstəmaz alarkən əvvəlcə
əlləri yumaq yaxşıdır.



Ağız və burun üç dəfə yaxalanır.



Üz üç dəfə yuyulur.

Üzün yuyulması dedikdə, **bir qulaqdan digər qulağa, çənə sümüyünün aşağı hissəsindən baş tüklərinin bitdiyi yerə qədər** yumaq nəzərdə tutulur.

Seyrək saqqala su yeritmək vacib,
sıx saqqala su yeritmək isə yaxşıdır.



Qollar **barmaqların ucundan dirsəklərə qədər** üç dəfə yuyulur. Birinci sağ, sonra isə sol qolu yumaq yaxşıdır.



Sonra başın hər tərəfinə məsh çəkilir. Məsh çəkərkən şəhadət barmağı qulaq boşluğuna daxil edilir və qulağın arxası baş barmaqla sürtülür.

Bunu bir dəfə etmək lazımdır. Başın məsh çəkilən vacib hissəsi **alından ənsəyə qədərdir.**



Sonra hər iki ayaq
**topuqlarla birlikdə** üç dəfə yuyulur.

# Təyəmmümün Müxtəsər Təlimi

**Su tapmadıqda və ya xəstəlik, yaxud şiddətli soyuq hava səbəbi ilə suyun zərər verəcəyindən qorxduqda təyəmmüm etməyə icazə verilir.**

---

**1** Qəlbdə niyyət etmək. (Niyyəti dil ilə söyləmək bidətdir)

---

**2** **"Bismilləh"** demək.

---

**3**



Əlləri bir dəfə torpağa vurmaq.

---

**4**



Sonra onlara üfürmək və ya onları silkələmək.

---

**5**



Sonra onlar (əllər) ilə üzə və bilək nahiyəsinə qədər əllərə məsh etmək.

---

**Su tapmasanız, təmiz torpaqla təyəmmüm edin və ondan üzünüzə və əllərinizə sürtün. Allah sizi çətinliyə salmaq istəməz, fəqət O sizi pak etmək və sizə olan nemətini tamamlamaq istər ki, bəlkə şükür edəsiniz.**

Maidə, 6

---

abu-bakr.com